# Paytaxtımız Formula 1-ə hazırdır

**Formula 1 dünyanın ən çox izlənilən idman yarışlarındandır. Uzun müddət bu platformanın idman növü sayılıb-sayılmadığına dair müxtəlif fikir ayrılıqları olsa da, böyük əksəriyyət F1-i idman yarışı hesab edir.**

Paytaxtımızda keçiriləcək builki Formula 1 yarışları üçün hazırlıq demək olar ki, yekunlaşıb. Şəhərimizi və ümumilikdə, ölkəmizi dünyaya tanıtmaq üçün böyük imkanlardan biri olan F1 yarışları, həm də turizmdə və turizmə bağlı iqtisadiyyat sahələrində də inkişafa, canlanmaya səbəb olur.






İl ərzində, fərqli ölkələrdə keçirilən Qran pri yarışları ümumilikdə F1-i təşkil edir. İlin sonunda toplanan ümumi xallara görə pilotlar və komandalar (avtomobilləri istehsal edən şirkətlər və onların komandaları) arasında çempionlar və medalçılar təyin edilir. 2016-cı ildən etibarən bir illik Formula 1 yarışları çərçivəsində təşkil olunan Qran prilərdən biri Bakıda keçirilir. Bakı Qran prisinin 2023-cü ilə qədər keçirilməsi nəzərdə tutulub.

2020-ci il üçün nəzərdə tutulan Formula 1 yarışları dünyada kütləvi qapanma və pandemiya ilə mübarizə çərçivəsində müvəqqəti təxirə salınan beynəlxalq tədbirlərdən biri idi. Məlum olduğu kimi, ötən il COVID-19 pandemiyası ilə əlaqədar ölkəmizdə və dünyada keçirilməsi nəzərdə tutulan bir çox tədbir, idman yarışı, eləcə də ümumi gediş-gəliş məhdudlaşdırılmışdı.

Formula 1 Bakı Qran prisinə bir neçə gün qalıb. Yarışlar üçün həyata keçirilən hazırlıqlar, demək olar ki, yekunlaşıb. Builki Bakı Qran prisi 4-6 iyun tarixlərində reallaşacaq. yarışın keçiriləcəyi küçə və prospektlərdə tikinti quraşdırma işləri sürətlə davam edir. Ölkəmizin artıq 5-ci dəfədir evsahibliyi edəcəyi bu F1 bu il ilk dəfə olaraq tamaşaçısız keçiriləcək. Yarışda iştirak edəcək təşkilatçı qurumlar Bakıya səyahətlə bağlı bütün hazırlıqları tamamlayıblar.

Yarış zamanı işçi qruplar üçün müvafiq sadələşdirilmiş viza işlərindən tutmuş, səyahətlə bağlı digər bütün məsələlər həll edilib. Yeri gəlmişkən qeyd edək ki, Prezident İlham Əliyev bu məsələ ilə bağlı müvafiq sərəncam imzalayıb. 2021 Formula 1 Bakı Qran prisinin təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı qəbul olunmuşdur. Sərəncama əsasən yarışların beynəlxalq təşkilatçıları olan "Formula One Management Limited" Şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının müvafiq qaydalarına uyğun olaraq, akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı və ya Bakı Şəhər Halqası Əməliyyat Şirkətində akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2021-ci il mayın 1-dən iyunun 15-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarından viza ala bilərlər.

Təbii ki, yarışlar pandemiya dövrünə təsadüf etdiyindən ölkəyə səfər edən hər bir əcnəbi, beynəlxalq səyahətlərin tələbinə uyğun olaraq 48 saat əvvəldən testdən keməlidir.. Azərbaycana gəldikdən sonra yarış ərazisinə daxil olmaq üçün hər 5 gündən bir COVID testini təzələməlidir.

Bütün bunlar yarış iştirakçılarının təhlükəsizliyi və sağlamlığına hesablanan addımlardır. Yarış Azadlıq meydanından idarə olunacaq. Bunun üçün ərazidə üçmərtəbəli qüllə, iştirakçılar üçün bokslar və iclas keçirilməsi üçün nəzərdə tutulan xüsusi yerlər hazırlanıb. Bu mötəbər idman tədbirinin telekanallar vasitəsilə yayımlanması üçün yarış qülləsinin qarşısındakı ərazidə yerli və əcnəbi media nümayəndələri üçün də xüsusi yerlər ayrılıb.

***İmran ƏLİYEV, "Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 2 iyun.- S.3.